**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 2**

**Bakı şəhəri, 30 aprel 2019-cu il**

**"Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə"
Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli
18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR:**

1. "Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 18 nömrəli Qərarının 1-ci hissəsi ilə təsdiq edilmiş əlavənin cədvəl bölməsinin 4.1.1-ci və 4.1.2-ci sətirlərində "1700" rəqəmi "2200" rəqəmi ilə əvəz edilsin.

2. Əhali istehlakçı qrupu ilə 2019-cu ilin 1 yanvar tarixindən 2019-cu ilin 30 aprel tarixinədək olan hesablaşmalar bu qərarın 1-ci hissəsinə əsasən müəyyən edilən təbii qazın illik istehlak həcmi nəzərə alınaraq həyata keçirilsin.

3. Bu qərar 2019-cu il 1 may tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası
Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**

https://www.tjnfctag.com/rfid-oem/